



## XX əsrin bəlası - Deportasiya

*Son iki əsrdə Qərbi Azərbaycanda soydaşlarımıza qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir. Rusiya imperiyası Cənubi Qafqazda möhkəmlənmək və özünün gələcək işğalçılıq planlarını həyata keçirmək üçün Cənubi Azərbaycanın Türkmənçay kəndində İran və Rusiya arasında bağlanmış müqavilənin 15-ci maddəsinə əsasən İran ərazisində yaşayan ermənilərin kütləvi surətdə Qərbi Azərbaycana və digər ərazilərə köçürülməsi rəsmiləşdirildi. Həmçinin azərbaycanlıların ata-baba yurdlarına Osmanlı imperiyasının ərazisindən də ermənilər köçürüldülər.*

# O yerlər Azərbaycan türklərinin əzəli məskənidir

Erməni vandallarının Qərbi Azərbaycan ərazilərinə köçürülməsi məsələsi hələ XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq niyyəti güdən Rusiya imperiyasının çoxdankı işğalçılıq planlarının tərkib hissəsi idi. İran və Türkiyə sərhədlərində bufer xristian zolağı yaratmaq niyyətində olan Rusiya erməniləri başlıca olaraq Qərbi Azərbaycanın İrəvan şəhərinin ərazilərinə, Göyçə mahalına, Dərələyəzə, Vediyə, Pəmbək mahalına, Qaraqoyunlu, habelə digər münbit torpaqlara köçürdü.

XVIII əsrin sonlarında İrəvan xanlığı ərazisində azərbaycanlılar az olduğu üçün onlar müxtəlif üsullara əl atır, saxtakarlıq edərək özlərinin sayını bir az da olsun artırmağa çalışırdılar.

İrəvan bölgəsində ermənilərin azlıq təşkil etməsi Rusiya imperiyasının İran və Osmanlı sərhədində bufer xristian dövləti yaratmaq siyasətinə zidd idi: elə bu səbəbdən də Azərbaycanın Arazdan şimaldakı torpaqlarını işğal edən çar imperiyası erməniləri kütləvi şəkildə Rusiya tabeliyində olan torpaqlar adı altında Qərbi Azərbaycanın İrəvan xanlığının ərazisində və azərbaycanlıların yaşadıqları digər torpaqlarda yerləşdirdi.

İrəvan xanlığının işğalından sonra həmin ərazilərdə yeni Rusiya idarəçilik sistemi yaradılmasına başlandı. Bu məqsədlə Qafqazın baş hərbi hakimi Paskeviçin əmri ilə 1827-ci il oktyabrın 6-da "Müvəqqəti idarə" adlı qurum yaradıldı. Yerli qoşunların komandanı general Krasovski onun rəisi, işğalçıların əlaltısı olan erməni arxitektoru Nerses isə "Müvəqqəti idarə"nin üzvü təyin edildi. Yerli əhali olan azərbaycanlılar dövlət idarəçiliyi himayəsindən məhrum edildilər.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər (haylar) öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin may ayından etibarən "əksinqilabçı ünsürlərlə mübarizə" şüarı altında Qərbi Azərbaycanda - İrəvan şəhərində, Amasiyada, Vedidə, Göyçə mahalında, Zəngəzurun Qafan, Sisyan və Gorus bölgələrində erməni vandalları analoqu olmayan cinayətlər törətdilər. Bu dəhşətli qırğınlara ən çox şeytan cildinə girmiş erməni keşişləri rəhbərlik edirdilər.

1918-ci ildə Qərbi azərbaycanlıların böyük bir hissəsi erməni zülmündən qurtulmaq üçün İrana, Türkiyəyə və Gürcüstana üz tutdu. Onların əmlakları ermənilər tərəfindən ələ keçirildi. 1920-ci il noyabrın 28-də Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra ata-baba yurdlarını məcburən tərk etmiş azərbaycanlıların az bir



hissəsi yenidən Qərbi Azərbaycana qayıtdı.

Ermənistan dövlətinin ideologiyası faşizm üzərində qurulmuşdur. Məhz buna görə də erməni daşnakları 1937-ci ildə yenidən öz çirkin əməllərini həyata keçirmiş, repressiya dövründə neçə-neçə azərbaycanlı Sibirə və Qazaxstana sürgün edilmişdir.

XX əsrin 60-cı illərində Heydər Əliyev amili ermənilərin əl-qolunu bağlamışdı. Sovet dövründə 1969-cu ilə qədər ermənilər dəfələrlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə əlaqədar sovet hökumətinə müraciət etmişlər. Ancaq Heydər Əliyevin qətiyyəti və çox ciddi etirazı buna imkan verməmişdir. Bundan sonra Heydər Əliyevin sovet hakimiyyətində fəaliyyəti dövrü başlanmışdır. O vaxt ermənilərin təxribat etmələri üçün heç bir imkanları olmamışdır. 1987-ci ildə ulu öndər vəzifədən gedəndən iki həftə sonra bu məsələ qaldırıldı və demək olar ki, o vaxtdan azərbaycanlılara qarşı növbəti soyqırımı başlandı. Ermənistanın televiziya kanallarında anti-Azərbaycan mövzusunda sifarişli verilişlər hazırlandı. Azərbaycanlılara qarşı Zori Balayan, Silva Kaputikyan, Sero Xanzadyan, Viktor Hambartsumyan kimi qatı millətçilər hər gün, hər saat uydurma təbliğatlar apardılar. Moskva, ABŞ və Fransadakı erməni diasporu da Qarabağ şüarı ilə çalışdılar. Nəticədə Qərbi azərbaycanın 300 min azərbaycanlı əhalisi 5-10 günün içərisində işgəncə ilə ata-baba yurdlarını tərk etdilər. Moskvaya vurulan saysız-hesabsız teleqramların heç birinə cavab gəlmədi. Çünki ermənilər azərbaycanlıların bütün şikayətlərinə sipər çəkirdilər.

Erməni vandalları nə qədər cəhd göstərsələr də, Qərbi azərbaycanlıların ata-baba yurdlarını heç vaxt özününküləşdirə bilməyəcək. Çünki haqq-ədalət bizim tərəfimizdədir. 2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşmüş və çıxışında demişdir: "Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifəmiz odur ki, dünya ictimaiyyəti də bunu bilsin...".

Qərbi Azərbaycandan zorakılıqla çıxarılmış şəxslərin öz yurdlarına qayıtması beynəlxalq hüquqa əsaslanır. Haylar bilməlidirlər ki, Qərbi azərbaycanlılar çox tezliklə qəribsəmiş yurd yerlərinə dönəcəklər. Çünki o yerlər türkün yurdudur, hər qarış torpaqda ayaq izlərimiz var...

**Firdovsi MƏMMƏDOV,**
**Bakı şəhəri,**
**"Zəfəran" hospitalının baş həkimi.**